# Milli Prioritetlər ölkəmizin inkişafını keyfiyyət etibarilə yeni səviyyəyə yüksəldəcək



***Prezident İlham Əliyevin müdrik liderliyi ilə Azərbaycan dövləti sürətli inkişaf yolundadır. Son illər ölkəmiz nəinki regionun, bütövlükdə dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Dostlarımız buna sevinir, düşmənlərimiz isə xar olurlar. Azərbaycanı yaxın gələcəkdə daha gözəl və xoşbəxt günlər gözləyir. Belə ki, 44 günlük Vətən müharibəsində düşmən üzərində parlaq qələbəmiz ölkəmizin hərtərəfli tərəqqisi üçün geniş imkanlar açmışdır. İndi ən vacib vəzifə bu imkanlardan maksimum bəhrələnmək, doğma Vətənimizi daha güclü və qüdrətli etməkdir.***

Möhtərəm Prezidentimizin 2 fevral 2021-ci il tarixdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında imzaladığı Sərəncam ölkəmizin qarşıdakı 10 il ərzində keyfiyyət etibarilə daha yüksək səviyyəyə çıxmasına imkan verəcək.

Sənəddə qarşıdakı dövrdə ölkənin əsas sosial-iqtisadi inkişaf istiqamətləri və buna uyğun milli prioritetləri müəyyənləşdirilib. Hesab edirəm ki, Milli Prioritetlər dövlətin idarə olunmasında strateji planlaşmanın təcəssümüdür. Bu, risklərin azalmasına, sahələrin sürətli inkişafına töhfə verəcək.

Bu mühüm sənədlə yaxından tanışlıq insanın gələcəyə olan ümidlərini daha da artırır. Fikrimcə, hər bir insan yalnız güclü və şərəfli ölkədə özünü tamamilə xoşbəxt hesab edə bilər. Xoşbəxtlikdən, müstəqil Azərbaycan, məhz belə şanlı ölkələrdən birinə çevrilməkdədir.

Dövlətin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur. Azərbaycanın zəngin təbii ehtiyatları, əmək resursları var. Son illər ölkəmizdə modern texnologiyaların inkişafına böyük önəm verilib. Azərbaycanda uğurla yüksək intellektli, gənc peşəkar kadrların hazırlanır. Ölkəmizdə bütün sahələrdə mövcud potensialdan səmərəli istifadə etməklə biz qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ biləcəyik.

Bir məqamı xüsusi qeyd etmək istəyirəm. Azərbaycan sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçməklə sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınıb. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb, cəmiyyətdə dövlətçilik ənənələri güclənib, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilib. Bütün bunlar gələcəkdə Azərbaycanın daha sürətli inkişafı üçün etibarlı zəmin yaradıb.

Bu gün düşməndən azad olunmuş ərazilərdə böyük tikinti-quruculuq işləri gedir. Dünyanın ən aparıcı şirkətləri Azərbaycan iqtisadiyyatına böyük sərmayələr yatırmağa hazır olduqlarını bəyan ediblər. Azərbaycan, təbii ki, ilk növbədə dost ölkələrin şirkətləri ilə işləməyə üstünlük verir.

İndi ölkəmizdə böyük ruh yüksəkliyi var. Azərbaycan xalqı öz Prezidentinə inanır və güvənir. Hər kəs əmindir ki, cənab İlham Əliyevin liderliyilə gözəl Şuşamız, külli Qarabağımız ən yaxın illər ərzində laləzara, gülüstana çevriləcək. Təkcə Qarabağımız deyil, bütün Azərbaycan dünyanın yüksək tərəqqi və mədəni intibah mərkəzlərindən biri olacaq.

Dahi siyasətçi Heydər Əliyev vaxtilə demişdir ki, Azərbaycan bütün dünyaya Günəş kimi doğacaq. Bu gün Azərbaycan, həqiqətən öz parlaq uğurları ilə bütün dünyanın diqqət mərkəzindədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik rəhbərliyi ilə Milli Prioritetlərin uğurlu icrası Azərbaycanımızı daha da gücləndirəcək.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

Xalq qəzeti 2021.- 9 fevral.- S.3.